# Əsas Qanunumuz

Azərbaycanın Konstitusiya quruluşunun tarixi SSRİ dövrünə təsadüf edir. Respublikamızın İlk Konstitusiyası 1921-ci il mayın 19-da, SSRİ konstitusiyasına uyğunlaşdırılmış yeni redaksiyası isə 1925-ci il martın 14-də qəbul edilmişdir. 1978-ci il aprelin 21-də isə 3-cü konstitusiya əvvəlki konstitusiyalar kimi SSRİ konstitusiyasına uyğunlaşdırılmış şəkildə qəbul edilmişdir.




Böyük siyasətçi ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Müstəqil Azərbaycanın ilk konstitusiyası 1995-ci ilin noyabrın 12-də keçirilmiş ümumxalq səsvermə yolu ilə qəbul edilmişdir. Dövlətin əsas qanunu 1995-ci il noyabrın 27-dən qüvvədə olmuşdur.

Bu konstitusiya müstəqil dövlət quruculuğu prosesini tənzimləyən, demokratik inkişafa təminat yaradan, cəmiyyətin siyasi, sosial, mədəni, iqtisadi inkişafında köklü dəyişiklikləri özündə ehtiva edən, qanunvericiliyin təkmilləşdirilməsində hüquqi baza rolunu oynayan mükəmməl bir sənəd idi.

Əvvəlki konstitusiyalardan fərqli olaraq bu konstitusiya vətəndaş hüquqlarının və azadlıqlarının təmin olunmasını dövlətin ali məqsədi kimi bəyan etdi. Hakimiyyət bölgüsünün əsas prinsiplərini müəyyənləşdirdi. İnsan və vətəndaş hüquqlarının, azadlıqlarının müdafiəsini qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları üzərinə ümdə vəzifə olaraq qoydu. Şəxsiyyətin toxunulmazlığı, insan həyat və sağlamlığının qorunması, layiqli həyat səviyyəsinin təmin olunması, humanizm və insanpərvərlik prinsipləri Azərbaycan Konstitusiyasının başlıca mahiyyətini təşkil edir. 5 bölmə, 12 fəsil, 158 maddədən ibarət konstitusiyada insan hüquq və azadlıqlarına geniş yer verilməsi ölkəmizin demokratiya ideyalarına sadiqliyinin göstəricisidir.

İlk konstitusiyanın milli dövlətçilik tarixində müstəsna əhəmiyyəti nəzərə alınaraq, 1996-cı il 1 noyabr tarixli fərmana əsasən hər il noyabrın 12-si Konstitusiya günü kimi qeyd edilir.

Ölkəmizin sürətli inkişafı nəticəsində dövrün tələblərinə uyğun olaraq Azərbaycan Konstitusiyasına bir neçə dəfə əhəmiyyətli dəyişikliklər və əlavələr edilmişdir. 2002-ci ilin avqustun 24-də referendum yolu ilə konstitusiyanın 24 maddəsində 29, 2009-cu il martın 18-də isə 25 maddəyə 30-dan çox əlavə və dəyişikliklər olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2016-cı ilin sentyabrın 26-da keçirilmiş referendumla konstitusiyaya 3-cü dəfə əlavələr və dəyişikliklər olunmuşdur. Konstitusiyanın 29 maddəsinə edilən 41 əlavə və dəyişiklik müxtəlif sahələri əhatə etməklə ali dövlət hakimiyyəti məhkəmə hakimiyyəti orqanlarının və bələdiyyələrin işinin təkmilləşdirilməsinə, insan hüquqları və azadlıqlarının müdafiəsində dövlət və bələdiyyələrin məsuliyyətinin artırılmasına yönəlib.

Konstitusiyamıza edilən əlavə və dəyişikliklər nəticəsində əsas Qanunumuz daha da təkmilləşmiş və dövrün tələblərinə uyğunlaşdırılmışdır.

**"Qəbələ"**

# 17 noyabr-Azərbaycanın Milli Dirçəliş Günüdür

Xalqın istiqlal mücadiləsinin əsas mərhələlərindən biri olan 17 noyabr - Milli Dirçəliş Günü Azərbaycanın müstəqilliyinin bərpa olunmasında tarixi rol oynamışdır.

Keçən əsrin axırlarında dünyanın altıda birini əhatə edən Sovetlər İttifaqının iqtisadi, siyasi, mənəvi və ideoloji dayaqları sarsılmışdır. İmperiyanın siyasi "beyin mərkəzi"nin xalqlara, xüsusilə Azərbaycan xalqına qarşı yürütdüyü ayrı-seçkilik siyasəti kəskin xarakter almışdır. M.Qorbaçov hakimiyyətinin dəstəyi ilə ermənilər Dağlıq Qarabağda azərbaycanlılara qarşı haqsız ərazi iddialarına başlamışlar. Ermənilərin Topxanada törətdikləri vəhşiliklər, Ağdamda isə iki azərbaycanlını qətlə yetirmələri Bakıda milli hisslər alovlandırmışdır. XX əsrin əvvəllərində olduğu kimi, xalq bu dəfə müstəqillik arzularını reallaşdırmaq üçün tarixi bir fürsətin yarandığını hiss etmişdir. 1988-ci ildən başlayaraq Azərbaycanda milli istiqlal hərəkatı geniş vüsət almışdır. Milyonlarla insanın toplaşdığı Azadlıq meydanında səslənən tələblərin mahiyyəti getdikcə dəyişmiş və müstəqil dövlət qurmaq ideyası milli düşüncəyə hakim kəsilmişdir.

1988-ci ildə xalq hərəkatının alovlandığı bir vaxtda Azərbaycana rəhbərlik edən siyasi qüvvələr isə mövcud vəziyyəti qiymətləndirə bilmədilər. Xalqın maraqlarından daha çox imperiyanın maraqlarını düşünən bu adamların siyasi səbatsızlığından 20 Yanvar faciəsi baş vermişdir. Bir-birini əvəzləyən hakimiyyətlər xalqın dirçəlişini mütərəqqi səmtə yönəltmək iqtidarında deyildilər. Həmin o ağır məqamlarda yenə də ulu öndər Heydər Əliyev xalqın istiqlal ruhunu ölməyə qoymadı.

1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin yeni tərkibdə ilk sessiyası keçirildi. Muxtar respublikanın adından "sovet" və "sosialist" sözləri çıxarıldı. İmperiyanın hələ tarix səhnəsindən silinmədiyi bir dövrdə Naxçıvanın adından "sovet" və "sosialist" sözlərinin çıxarılması müstəqilliyimizin qazanılması yolunda çox böyük tarixi addım idi. Bununla ümummilli liderimiz milli dövlətçiliyimizin dirçəlişi istiqamətində ilk böyük addım atdı.

Ulu öndər–Heydər Əliyevin sədrliyi ilə keçirilən həmin tarixi sessiyada Muxtar Respublikanın dövlət rəmzləri haqqında məsələ də müzakirə olunmuşdur. Xalq deputatlarının müzakirəsindən sonra üçrəngli bayrağın dövlət rəmzi kimi qəbulu ilə əlaqədar təklif irəli sürülmüşdür. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının bərpa olunması barədə qərar çıxaran sessiya onun dövlət bayrağı kimi qəbul edilməsi ilə əlaqədar Azərbaycanın Ali Soveti qarşısında vəsadət qaldırmışdır. Beləliklə, milli dirçəlişdən milli tərəqqiyə doğru uzanan tarixi yolun başlanğıcı qoyulmuşdur.

**AZƏRTAC**

# İndoneziya Respublikasının ölkəmizdəki səfirliyinin müvəqqəti işlər vəkili xanım İnqam Malem Qəbələ rayonunda səfərdə olmuşdur

İndoneziya Respublikasının Azərbaycan Respublikasındakı müvəqqəti işlər vəkili xanım İnqam Malem noyabrın 10-da tanışlıq məqsədilə Qəbələyə səfər etmişdir. Xanım İnqam Malem və



onun başçılıq etdiyi nümayəndə heyəti rayon icra hakimiyyəti başçısının müavini Arif Allahverdiyev tərəfindən qəbul edilmişdir. Ona rayon haqqında və rayonun sosial-iqtisadi göstəriciləri haqqında geniş məlumat verilmişdir. Səfər çərçivəsində xanım İnqam Malem və onun başçılıq etdiyi nümayəndə heyəti Heydər Əliyev Mərkəzini ziyarət etmiş, rayonda fəaliyyət göstərən sənaye və turizm infrastrukturu ilə tanış olmuşdur.

# 22 noyabr - ədliyyə işçilərinin peşə bayramı günüdür

1918-ci ildə Azərbaycan Demokratik Respublikasının yaradılması ilə bir gündə təsis olunan Ədliyyə Nazirliyi 102 illik tarixi dövr ərzində zəngin, keşməkeşli bir yol keçərək müasir inkişaf mərhələsinə çatıb, dövlətin hüquq siyasətini həyata keçirən bir orqana çevrilib, səlahiyyətləri isə xeyli genişlənib.

Azərbaycanda ədliyyə sisteminin xalqımızın müstəqillik uğrunda mübarizəsini, onun şanlı keçmişini əks etdirən zəngin tarixi vardır. Ölkənin ədliyyə tarixinin ən şərəfli anları 1918-ci ildə Azərbaycan Demokratik Respublikasının yaranması ilə başlanır. Azərbaycan Demokratik Respublikası 1920-ci il aprel ayının 28-də süqut etdikdən sonra Ədliyyə Nazirliyi ləğv edilir və yerinə Xalq Ədliyyə Komissarlığı yaradılaraq, onun səlahiyyətlərinə qanunvericilik layihələrinin hazırlanması, məhkəmə işçilərinin seçilməsi, təlimatlandırılması və onlara inzibati rəhbərlik edilməsi, qanunçuluğa ali nəzarət və istintaqın aparılması daxil edilir. 1959-cu ildə Ədliyyə Komissarlığının yenidən fəaliyyəti dayandırılır və onun səlahiyyətləri ayrı-ayrı dövlət orqanları arasında bölüşdürülür.

Ədliyyə Nazirliyinin yenidən yaradılması görkəmli dövlət xadimi, Ümumilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrə təsadüf edir. Belə ki, 27 oktyabr 1970-ci ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Ədliyyə Nazirliyi təsis edildi və bununla da Azərbaycan ədliyyə tarixində yeni mərhələ başlanmış oldu. Ədliyyə Nazirliyi sabit fəaliyyət göstərərək məhkəmə orqanlarına təşkilati rəhbərliyi həyata keçirmək, əhaliyə hüquqi yardımı yaxşılaşdırmaq, notariat fəaliyyətinin və məhkəmə ekspertizalarının aparılmasını təmin etmək, ümumiyyətlə, ədliyyə işi təkmilləşdirilərək onun gələcək inkişafı üçün zəmin yarandı. Azərbaycan yenidən dövlət müstəqilliyi əldə etdikdən və Heydər Əliyev ölkə rəhbərliyinə gəldikdən sonra ədliyyə orqanlarının işinin müasir tələblər səviyyəsinə qaldırılması üçün əsaslı tədbirlər həyata keçirildi. Ədliyyə işçilərində və hakimlərdə mənəvi stimul yaradılması məqsədilə onların peşə bayramı gününün müəyyən edilməsinə təşəbbüs göstərilərək 22 noyabr - 1918-ci ildə Azərbaycan Demokratik Respublikası Ədliyyə Nazirliyinin Əsasnaməsinin təsdiq edildiyi günün ədliyyə işçilərinin peşə bayramı günü kimi təsis edilməsi üçün dövlət başçısına müraciət edildi və Ümummilli lider Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli Sərəncamı ilə 22 noyabr ədliyyə işçilərinin peşə bayramı günü kimi müəyyən edildi.

Bu gün Qanunun aliliyi, insanların qanun qarşısında bərabərliyi məsələsi ədliyyə sisteminin əsas fəaliyyət prinsipini təşkil edir. Ümummilli liderimizin dövlət quruculuğu xəttini uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən ədliyyə və məh-




kəmə sisteminin müasirləşdirilməsi üzrə mühüm qərarlar qəbul olunmuş, ədliyyə fəaliyyətinin mükəmməl normativ hüquqi bazası yaradılmış, ədliyyə işi beynəlxalq norma və prinsiplərə uyğunlaşdırılmış, onun üzərinə yeni mühüm vəzifələr qoyulmuş, gələcək inkişafına dair əhatəli Dövlət Proqramı qəbul edilmişdir. Ölkəmizin beynəlxalq təşkilatlarla sıx əlaqəsi və söz sahibinə çevrilməsi uzun tarixi yol keçən Ermənistan-Azərbaycan münaqişəsində də xüsusi rol oynamışdır. Bir çox beynəlxalq təşkilatların münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli ilə bağlı çoxsaylı sənədlər qəbul etməsinə baxmayaraq, qarşı tərəf heç bir hüquqi akta məhəl qoymayaraq məkrli siyasətlərini davam etdirməyə başlamış, tez-tez cəbhəboyu bölgələrdə atəşkəsi pozmağa davam etmişdir. Nəticədə 27 sentyabr 2020 -ci il tarixində Ermənistanın Azərbaycan ordusunun mövqelərini və yaşayış məntəqələrini intensiv atəşə tutması nəticəsində, Ermənistan ordusunun döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan ordusunun komandanlığı tərəfindən qoşunların bütün cəbhə boyu sürətli əks-hücum əməliyyatı həyata keçirməsi ilə İkinci Qarabağ müharibəsi başlamışdır. Erməni terror qruplaşması döyüş meydanında gücünü göstərə bilmədiyini anlayaraq Azərbaycanın mülki vətəndaşlarının yaşadıqları şəhər və rayonları raket atəşinə tutmaqla insan hüquqlarını kobud şəkildə pozmuşdur. Beləliklə də, Ermənistan tərəfi beynəlxalq hüququn norma və prinsiplərini, habelə elan edilmiş humanitar atəşkəs rejiminin tələblərinə məhəl qoymayaraq dünya ictimaiyyəti tərəfindən ümumbəşəri dəyər və beynəlxalq hüquq prinsiplərini pozaraq hərbi cinayət aktlarına imza atmış oldu. Elə bu çıxışlardan vaxt keçmədi ki, Azərbaycanın müzəffər ordusu torpaqlarımızın böyük bir qismini işğaldan azad etdi. Azərbaycan haqq savaşında ən böyük qalibiyyətini isə Şuşa şəhərini işğaldan azad etməklə qeyd etdi. Nəhayət, 10 noyabrda 30 illik işğal 44 günlük uğurlu zəfər yürüşü Azərbaycanın tam qələbəsi ilə başa çatdı. Ölkəmiz beynəlxalq hüquqi aktlara məhəl qoymayan Ermənistana ədaləti döyüş meydanında göstərdi və Qarabağın əzəli Azərbaycan torpaqları olduğunu bəyan etdi. Ərazi bütövlüyümüzün bərpasını, torpaqlarımızın qaytarılmasını Prezident kimi başlıca vəzifəsi hesab edən Ali Baş Komandan cənab İlham Əliyev bu vəzifənin öhdəsindən şərəflə gələrək özünün də dediyi kimi Azərbaycan xalqının dəstəyi, zəhməti və cəsarəti hesabına torpaqlarımızı öz həqiqi sahiblərinə qaytardı.

Ölkə başçısı "Ölkəmizin gələcəyi çox parlaq olacaq. Biz son illər ərzində çox böyük uğurlara imza atmışıq. Azərbaycan bu gün çox güclü bir ölkəyə çevrilib. Dağlıq Qarabağ münaqişəsinin həlli ölkəmizə yeni nəfəs verəcək" deyərək haqqın ədalətdən, ədalətin mərhəmətdən yüksək olduğunu sübut etmiş oldu. Həmçinin Prezident İlham Əliyev Azərbaycanın əzəli və əbədi torpaqlarından bir qarış belə güzəştə getməyərək bütün dünyaya bəyan etdi ki, Qarabağ Azərbaycandır!

**Vasif MAHMUDOV,**
**Qəbələ Regional Asan Xidmət Qeydiyyat şöbəsinin rəisi.**